BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# MƏMMƏD RAHİMİN POEMALARINDA LİRİK RİCƏTLƏR

**S.M.MƏRDANOVA**
*Bakı Dövlət Universiteti*

M.Rahim Azərbaycanın birinci nəsil sovet şairlərindən Suleyman Rüstəm, Səməd Vurğun, Osman Sarıvəlli, Rəsul Rza və başqaları ilə birlikdə yazıb-yaradan görkəmli sənətkar idi, lirik şair kimi çoxlu şeirləri və poemaları var. Biz onun on iki poemasını lirik ricət baxımından nəzərdən keçirdik. Əvvəldən deyək ki, M.Rahimin poemalarının əksəriyyəti öz- özlüklərində həm məzmun, həm də poetik baxımından yaxşı təsir bağışlasa da, onlarda lirik ricətlər xüsusi yer tutmur. Təsadüfi deyil ki, bu poemaların bəzilərində bir dənə də olsun, lirik ricət yoxdur. Məsələn, şairin həcmcə böyük poeması olan «Abşeron torpağında» belə poetik parça yoxdur. M.Hüseyn vaxtilə bu poemanı ədəbi brak adlandıranda haqlı idi. Fikrimizcə, bu poemalarda romantik pafosun güclü olmaması ilə əlaqədardır. Ədəbiyyatşünaslıq artıq qəbul edibdir ki, lirik ricət, əsasən, romantik poemalar üçün səciyyəvidir. Belə demək olar ki, lirik ricətlər belə poemalarda təhkiyəni müşayiət edən bədii üsüldur. Bununla belə, M.Rahimin poemalarında seyrək də olsa, lirik ricətlərə təsadüf edirik. Şairin əsərlərinin 1967-ci ildə nəşr edilmiş üçcildliyinin birinci cildində ancaq şeirləri, ikinci cildində şeirləri və yeddi poeması verilmiş, üçüncü cildində isə ancaq poemaları (beş poeması) çap olunmuşdur.

Şairin poemaları arasında müsbət mənada fərqləni, həqiqətən, məzmun və poetik cəhətdən səviyyəli olanı «Leninqrad göylərində» poemasıdır. Bu poemanın proloqunu lirik ricət hesab etmək olar. Düzdür, bu şeir parçası təhkiyənin arasından çıxmır, formal cəhətdən lirik ricət mövqeyində deyil, ancaq o, təhkiyənin özü də deyil.

Ömür dedikləri coşğun çay kimi,
Kükrəyib köpürür, hər zaman gedir,
Ona bel bağlama o qədər də sən,
Bəzən açılmamış gül bağban gedir.
Arxayın-arxayın gəzmə əsərsiz,
Deməsinlər, halı pərişan gedir.
Yarat, sən köçəndə ellər söyləsin:
Dünyadan nə gözəl bir insan gedir.

Bu şeir parçası poemanın süjeti ilə sıx bağlıdır. Şairin gənc qəhrəmanları həlak olur; gələcək uğrunda, qələbə uğrunda odlar-alovlar içində mübarizə aparan obrazları dünyalarını dəyişir: «Acılmamış gül, bağban gedir». Şairin azərbaycanlı qəhrəmanı havaya qalxır, düşmən təyyarəsi ilə vuruşda ona qalib gələrək yerə enir. Poemanın müəllifi özü də bu səhnədən ilham alır, Hüseynbalanın doğma yurdunu xəyalında canlandırır və lirik ricət edir. Həmin ricətdən bir neçə misra:

Budur, önümdədir təpəsi qarlı
Qafqazın möhtəşəm sıra dağları.
Budur Azərbaycan, Şirvan, Qarabağ,
Vətənin sevdalı göy yaylaqları...

Şair poemanın qız qəhrəmanı Varyanın ölümünü təsvir edir; « Qurtara bilmədi axır sözünü, Ölüm əl uzadıb yumdu gözünü» - deyir və həyəcanla gələrək daxili düşüncələrini dilə gətirir:

Bir də gülməyəcək ala gözləri,
Bir də məhəbbətlə şirin sözləri
Səhərin qoynuna yayılmayacaq.
Quşlar yuvasından ayılmayacaq
Mehriban Varyanın zümzüməsilə,
Ötür badi-səba hicran səsilə...

Varyanın sevgilisi Aleksey Varyanın məzarı önündə dayanıb, sanki onu gözləyir, elə bil ki, Varya indi ayağa qalxacaq, onunla görüşəcəkdir, ancaq bu, mümkünsüzdür, elə bu zaman şair dünyanın dəyişməz qanununu yada salır və deyir: «Dünya məclis qurandan bəri, O yoldan qayıdan olmamış geri!»

Poemada Hüseynbalanın son döyüş səhnəsi təsvir ediləcəkdir, Hüseynbala qəhrəmanlıqla həlak olacaqdır, O, yaralı halda öz dostunu qorumağa gedəcəkdir. Hüseynbala, təyyarəsi ilə havadadır; yerdəkilər nigarandılar, «Baxışlar mükəddər, üzlər qəmlidir, sanki ağlayıbdır, gözlər nəmlidir». Şair, faciəni təsvirdən əvvəl, elə bil buna psixoloji hazırlıq aparır və belə bir həkimanə lirik ricətə əl atır:

Qartal tərk eləsə öz yuvasını,
Qayalar saxlayar onun yasını.
Talasından kənar düşərsə ceyran,
Gəzər yoldaşları bir zaman heyran.
Ağılından quzu gedərsə iraq,
Ananın naləsi çəkər qəlbə dağ.
Aslan qayıtmasa doğma yerinə,
Meşələr göz dikər ləpirlərinə.

Bu ricət, hadisələri qabaqlayır, elə bil Hüseynbalanın başına gələcək hadisələrin nələrə səbəb olacağından xəbər verir. Nəhayət, bu faciə baş verir. Hüseynbala yaralı halda öz təyyarəsini yerə endirə bilir, yoldaşları təyyarəni araya alır, görürlər ki, «Dolub təyyarəsi qızıl qanından, Uçub həyat quşu aşiyanından». Elə buradaca şairin müraciəti eşidilir.

Ağlama!
Ağlama!
Şeirim, ağlama!
Başını dik saxla, qara bağlama!
Vətənə çatmasın ahın, amanın,
Bu da bir qəzadır, hökm – Zamandır!

Kiçik epik lövhədən sonra, bu ricət bir də təkrar edilir. Hüseyn torpağa tapşırılır, yer yenə qoynuna bir məzar alır, yenə şairin səsi eşidilir:

«Hər qəbir dünyanın bağrına yükdür, əzəldən torpağın dərdi böyükdür». Şair özü-özünə etiraf edirmiş kimi, «Torpağın nə dərdi, nə qəmi vardır, Onun da qəribə bir aləmi vardır», deyə yenə ricət edir:

Yer iftixar edir bitməz varilə,
Daimə dolanır öz qərarilə
Torpağa tanışdır çoxdan məzar da,
Ətirli çiçək də, zəhərli xar da.
Köksünə şiddətlə düşən çarpara
Açsa da qoynunda ağır bir yara,
Yer yenə baharda açır gül-çiçək.

Bu ricətlərin hamısı M.Rahimin «Leninqrada göylərində» poemasındandır. Şair istəmişdir ki, «Leninqrad göylərində» poemasından sonra onun davamı olaraq iki poema da yaradıb, poema üçlüyü düzəltsin. Doğrudan da, bəzi obrazları poemadan-poemaya keçirərək daha iki poema yaratdı. Lakin son iki poema «Leninqrad göylərində» səviyyəsinə qalxa bilmədi, zəif çıxdılar. Qəribədir ki, bu poemaların heç birində lirik ricət yoxdur.

M.Rahimin «Natəvan» poemasında Natəvanın düşüncələri lirik çalarla ifadə olunur; aşağıdakı şeir parçası obrazın dilindən deyilsə də, ricət məqamındadır; çünki o, təhkyənin davamı deyil, şairənin (Natəvanın) düşüncələridir:

Əzəldən qaydadır, bu kainatda
Şəmin ətrafına pərvanə gələr.
Aşiq baş qoymağa canan yolunda
Yeriyib meydana mərdanə gələr.

Cox da öyünməsin qoy namərd qəza,
Üz verməz hər zaman möhnət qəvvasa.
Bir gün ömrü çıxar al-əlvan yaza,
Əlinə gövhərlə dürdanə gələr.

Natəvan – şair Natəvan həyatda işıqlı bir şəxs olubdur, insanların dərdinə qalan bir ziyalı olubdur. M.Rahim də poemada onu belə vermək istəmişdir. Buna nə qədər nail olub, ya olmayıb, onunla işimiz yoxdur. Ancaq qaragüruh qüvvələrin şairə qarşı fəsadlarını verə bilibdir. Axundlar, mirzələr çox çalışırlar ki, Natəvanı hörmətdən salsınlar, hətta onu xalq arasında biabır etmək istəyirlər. Ancaq çox çalışsalar da, buna nail ola bilmirlər. Axırda şairənin bir göyərçinini oğurlayıb, şair Asinin adından bir həcv yazıb quşun ayağına bağlayır və səs yayırlar ki, Asi Natəvana həcv yazıbdır. M.Rahim qəzəblənir, ricətlə «Neçə belə rəzalətin şahidisən, ey Qarabağ!» - deyir. Ayağında məktub olan Quşu tutub, gətirirlər Natəvana. Müəllif bu həcvin şairəyə necə təsir edəcəyini duyur və ricətlə zamanı lənətləyir; «Sənə ancaq bu iş üçün Qoy ar olsun, ey zamanə!» deyir.

«Qırx qız» poemasının son misraları ricəti xatırladır. Dənizdə çimən qırx çılpaq qızı xan görür. Qızların qaçmağa imkanı olmur, «Qabaq dəniz, yan qaya», bu tərəfdə də xan. Qızlar daşa dönməklə canlarını qurtarırlar. Ancaq onların naləsi havalanır, əfsanələri ağızlarda dolaşır. Bu vaxt şairin səsi eşidilir:

Nə sonu, nə əvvəli
Olmayan bu dünyanın,

Ey oxucum, inanın,
Əfsanəsində, əlbət,
Vardır bir az həqiqət.

«Ögey ana» poemasının mərkəzi obrazı Polad oxumağa gedir. Arvadı və qızı kənddə qalırlar. Poladı istəməyənlər ona xəbər çatdırırlar ki, guya onun arvadı yaxşı yolda deyil. Polad bu böhtanlara inanıb arvadını boşayır,qızını öz yanında saxlayır, evlənmək istəmir. Lakin qohum- qardaşın təhriki ilə evlənməyə məcbur olur. Aldığı qız əvvəlcə Poladın qızına pis baxmır; özünün ekizləri olandan sonra qızı gözdən salır, imkan vermir ki, o, dərslərini hazırlasın, uşağın işdən başı açılmır, məktəbdə dərslərindən iki alır. Arvad isə qız haqqında Polada gileylər edir. Guya qız – Gülər körpələri incidir, iş görmür, dərs oxumur. Bir belə epizodda Polad Güləri döyməli olur, irəli gələn öz anasına da söz qaytarır; Dürdanə – Poladın tor quran fitnəkar arvadı canıyananlıq edir kimi, Poladı «danlayır», «Belə qıyarlarmı zərif bir qıza?!» - deyir; əslində isə «Dürdanə zövq alıb, baxdı uzaqdan». Burada şair hekayətə bir qədər ara verərək yazır:

Mənsə ürəyimdən qan sıza-sıza
Gülərin dərdinə könül yaralı,
Yazdım bu səhnəni ağlı-qaralı

Axır belə məqam gəlir ki, Gülər bir otağa girib özünü yandırmaq istəyir. Bunu şairdən başqa heç kəs bilmir. Şair isə xəyalən üzünü Gülərə tutub, onu bu əməldən çəkindirmək istəyir. Budur şairin müraciəti:

Gülər! Qılınclama istiqbalını,
Boğma əllərinlə öz iqbalını!
Yaramaz tədbiri lənətlə yalnız,
Qatillik eləmə, dərin düşün gəl!

Gülər, dünyasını dəyişdi. Hamı matəm içindədir; Gülərin doğma anası Rəna, nənəsi Əsmət də dərd içində «Çökdü gözlərinə bir qatı zülmət». Dürdanə də onlara «qoşuldu», riyakarlığını gizlədərək qara geyindi, saxta vay- şüvən qopardı; «Ah, necə keçəcək onsuz günlərim?!» deyə yalandan nalə çəkdi. Elə bu halı, bu saxtakarlığı görən şair, ricət edir:

Bəli, çox fitnələr baş verər, inan,
Mələk simasına girəndə iblis.

Qeyd etmişdik ki, M.Rahimin poemalarında lirik ricətlər olduqca azdır. Verdiyimiz ricətlər və ricət məqamlı lirik parçalar göstərir ki, olan ricətlər də poetik cəhətdən səviyyəli deyildir. Bununla belə, həmin ricətlər poemalara nə isə verir və onların öyrənilməsi bu cəhətdən əhəmiyyətlidir.

**QEYDLƏR:**

1. Məmməd Rahim. Seçilmiş əsərləri. Üç cilddə, I cild. Şeirlər. Azərnəşr, Bakı: 1967.
2. Məmməd Rahim. Seçilmiş əsərləri. Üç cilddə. II cild. Şeirlər. Poemalar. Azərnəşr, Bakı: 1967.
3. Məmməd Rahim. Seçilmiş əsərləri. Üç cilddə. III cild. Poemalar. Azərnəşr, Bakı: 1967.

## ЛИРИЧЕСКИЕ ОТСТУПЛЕНИЯ В ПОЭМАХ МАМЕДА РАГИМА

**С.М.МАРДАНОВА**

**РЕЗЮМЕ**

В статье рассмотрены 12 поэм Мамеда Рагима. Общий вывод таков: лирические отступления для поэм этого автора не характерны и в некоторых поэмах их нет, т.к. в поэмах отсутствует романтический пафос.

В этом плане отличается его поэма, «Leninqrad göylərində», где лирические отступления имеет более обширный характер. Встречаются они и в поэме «Мачеха». В статье раскрываются связи лирических отступлений с описанием событий, их поэтические особенности.

## LYRIC DEVIATION THE POEMS OF MAMMAD RAHIM

**S.M.MARDANOVA**

**SUMMARY**

The article is dealing with twelve poems of Mammad Rahim. And the main conclusion is going to be like this: lyric deviation for such an author is not characteristic in some of his other poems where romantic pathos is absent ofcourse.

To this point his poem of “Leningrad geylatindah” where the lyric deviation is much more characteristic. Lyric diviation can be met in his famous poem of “Ogey Anah”. And the ties of lyric deviation is comeng to light while narrating the events and their poetical peculiarities.